**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

**Q Ə R A R**

**№ 25/09**

**Bakı şəhəri** **25 iyul 2024-cü il**

# "Sosial müavinətlər, kompensasiyalar və təqaüdlər haqqında" 4-MKT №-li (rüblük) rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstərişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2022-ci il 21 dekabr tarixli 43/09 nömrəli qərarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 19 aprel tarixli 1133-VIQD nömrəli Qanununun icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 16 may tarixli 260s nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**qərara alır:**

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2022-ci il 21 dekabr tarixli 43/09 nömrəli qərarı ilə təsdiq edilmiş "Sosial müavinətlər, kompensasiyalar və təqaüdlər haqqında" 4-MKT №-li (rüblük) rəsmi statistika hesabatı formasının "I bölmə. Aylıq sosial müavinətlər və kompensasiyalar" bölməsinin A Cədvəlinin 06-cı sətrində "hüquq qazanan" sözləri "03.05.2024-cü il tarixinədək hüquq qazanmış" sözləri ilə əvəz edilsin və həmin sətirdən sonra aşağıdakı məzmunda 06-1-ci sətir əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş səkkiz yaşınadək övladlığa və ya qəyyumluğa götürülmüş uşaqlar da daxil olmaqla beş və daha çox uşağı olan və ya əlilliyi müəyyən edilmiş uşağı olan (uşaqların səkkiz yaşınadək sağ olması şərtilə) qadınlara və kişilərə (03.05.2024-cü il tarixdən hüquq qazanan) | 06-1 | | | |

2. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

3. Aparatın Sosial statistika şöbəsinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsin.

4. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə olunsun.

**Sədr** **Tahir Budaqov**